# Azərbaycançılıq və milli birlik



*"Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Öz ürəyimdən gələn fikirləri bir daha bildirmək istəyirəm ki, hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!"*

**ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV**

Xüsusilə 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü bütün soydaşlarımız bu ideyalar ətrafında sıx birləşirlər. Azərbaycan xalqı minilliklər boyu özlərinin doğma torpağı olan tarixi Azərbaycan ərazisində yaşayaraq dünya sivilizasiyasına böyük töhfələr vermişlər. Müharibələr, inqilablar, hərbi münaqişələr, dünyada gedən müxtəlif ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanmış, azərbaycanlıların bir qismi öz yurd-yuvalarından didərgin salınmış, deportasiyalara məruz qalmış, bir-birindən ayrı düşmüşlər. Bundan əlavə müxtəlif səbəblər - iş tapmaq, təhsil almaq məqsədilə doğma yurdu tərk edərək başqa ölkələrdə qərar tutub yaşayan azərbaycanlılar da var. Beləliklə də, azərbaycanlılar tarixi Azərbaycan torpaqlarından dünyanın 70-dən çox ölkəsinə yayılıblar. Təsadüfi deyil ki, Rusiyada, Ukraynada, Müstəqil Dövlətlər Birliyinin digər ölkələrində, Baltikyanı ölkələrdə, Avropada, Amerikada, Şərq ölkələrində iri Azərbaycan icmaları yaranıb, eləcə də Azərbaycan diasporları fəaliyyət göstərir. Məhz bu səbəblərdən zəruri bir ehtiyac yarandı. İlin bir günü də olsa, dünya azərbaycanlılarını bir araya gətirən, ruhən də olsa bu birliyi yaşada biləcək bir günün təməli qoyulmalı idi. Məhz Heydər Əliyevin səyi nəticəsində 1993-cü ildən etibarən 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi qeyd olunur. Əslində bu bayram - Dünya Azərbaycanlılarının, Azərbaycan xalqının birlik şüarı günüdür. Bu gün ayrı-ayrı ölkələrdə yaşayan, fəaliyyət göstərən azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. Azərbaycanlıların həmrəyliyinin həm ölkəmiz üçün, həm də dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız üçün xüsusi əhəmiyyət kəsb etdiyini düzgün dəyərləndirən ulu öndər Heydər Əliyev xaricdəki azərbaycanlıların birliyi və təşkilatlanması məsələlərini diqqət mərkəzində saxlayırdı. Ulu Öndər xarici ölkələrə etdiyi səfərlər zamanı Azərbaycan diasporunun nümayəndələri ilə görüşlər keçirər, onların problem və qayğıları ilə yaxından maraqlanar, daha sıx təşkilatlanmalarına dair dəyərli tövsiyələr verərdi. "Harada olursa-olsun azərbaycanlıların birlikdə, bərabər olması əsas şərtlərdən biridir. Biz çalışırıq ki, Azərbaycanın daxilində bütün qüvvələri toplayaq. Eyni zamanda Azərbaycandan kənarda yaşayan azərbaycanlılar da öz qüvvələrini toplamalıdırlar. Ayrı-ayrı qüvvələrin, qrupların arasında fikir müxtəlifliyi ola bilər. Bu təbii haldır. Ancaq Azərbaycanın müstəqilliyini qorumaq, ərazi bütövlüyünü saxlamaq üçün hamı bütün başqa fikirləri kənara qoyub birləşməli, bir hədəfə vurmalı, bir məqsədə xidmət etməlidir" - deyə Ulu Öndər bildirmişdir.

Əslində azərbaycanlıların birlik istəyi var idi, millətdə bu əzm görünürdü. Həmrəylik gününün yaranma vaxtlarına nəzər salsaq görərik ki, Azərbaycan millətinin, Arazın hər iki sahilində sərhəd yürüşü, dəmir tikanlı məftilləri qırması, özünü suya vurub öz doğma qardaş-bacısına qovuşmaları iki totalitar dövlətin (SSRİ-İran) ciddi təzyiqlərinə baxmayaraq, o taylı - bu taylı millətin həftələrlə Araz qırağında gecə-gündüz birləşmək şüarı, azərbaycanlıların bir millət olduğunu dünya çapında bir daha canlandırdı. Həmrəylik günü bu birləşmək istəyinin simvolik nişanıdır. Nəhayət SSRİ-İran sərhədlərinin dağlması, Şimali və Cənubi Azərbaycan arasındakı sərhəd dirəklərinin dağıdılması azərbaycanlıların həmrəylik gününün qeyd edilməsinə bir daha zəmin yaratdı. 1991-ci il dekabrın 16-sı Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri Heydər Əliyev bu günün keçirilməsinin vacibliyini nəzərə alaraq 31 dekabrı Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi.

Hazırda Azərbaycan Respublikasının dünyanın 50-dən çox ölkəsində diasporu fəaliyyət göstərir. Məhz bu diasporların fəaliyyətinin nəticəsində dünya azərbaycanlıları bir-birləri ilə müntəzəm olaraq əlaqə saxlayırlar. Məhz bu birliyin nəticəsidir ki, istər Azərbaycanın adət-ənənələri, istər vətənimiz haqqında müxtəlif ölkələrdə ciddi təsir yarada biləcək təəssüratların yaranması, istər Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması baxımından bu diasporların fəaliyyətini qiymətləndirməmək mümkün deyil. Azərbaycanlıların vətəndən kənarda bir bütün halında birləşmələri, vahid azərbaycançılıq ideologiyası ətrafında fəaliyyət göstərmələri zəmin yaradır ki, dünya ictimaiyyətinin Azərbaycan haqqında fikirləri müsbət isiqamətdə formalaşsın. Xaricdə yaşayan azərbaycanlıların mütəşəkkil diaspor kimi formalaşması Azərbaycan Respublikasının xarici siyasətinin əsas prioritetlərindəndir.

Dünya azərbaycanlılarının birlikdə hərəkəti, inkişafı, fəaliyyəti həmrəyliyin ən gözəl göstəricisidir. Bu birliyi özündə simvolizə edən 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü isə ulu öndər Heydər Əliyevin Azərbaycan xalqına miras qoyduğu önəmli tarixlərdəndir. Dünya azərbaycanlıları bu günlə fəxr edir, onu qürurla qeyd edirlər. Təsadüfi deyil ki, günü-gündən çiçəklənən Azərbaycan ətrafında sıx birləşmək hər bir azərbaycanlı üçün şərəfdir. Eyni zamanda bu hər bir azərbaycanlının vətəndaşlıq borcudur.

Bu gün xalqımızın söz, əqidə və əməl birliyinə nail olmaq üçün Azərbaycan dövləti tərəfindən görülən işlərin miqyası ildən-ilə genişlənir. Dünyanın dörd bir yanına səpələnmiş on milyonlarca azərbaycanlı gücün birlikdə olması həqiqətini getdikcə daha aydın dərk edir. Azərbaycan diasporları və icmaları arasında bağlar möhkəmlənir, soydaşlarımız milli hüquqların müdafiəsi işində bir-birinə dayaq durur, tarixi Vətənlə əlaqələrini gücləndirirlər. Onlar yaxşı başa düşürlər ki, milli mənəvi bütövlüyü möhkəm təməli üzərində qurulan Azərbaycan bütün soydaşlarımızın və həmvətənlilərimizin güvənc yeri olan qüdrətli bir dövlətə çevrilməkdədir.

Azərbaycan Respublikası bütün dünya azərbaycanlılarının doğma ata-baba yurdudur. Odur ki, Asiyada, Avropada, Amerikada və digər qitələrdə məskən salmış soydaşlarımız Vətəndə baş verən ictimai-siyasi prosesləri diqqətlə izləyir, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi heyrətamiz uğurlarla fəxr edirlər.

Azərbaycan Prezidenti İlham Əliyevin dünya azərbaycanlılarının birləşməsi sahəsində gördüyü prinsipial işlər xalqımız və bütün dünya azərbaycanlıları tərəfindən yüksək qiymətləndirilir. Məhz bu mənəvi birlik və milli həmrəylik dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsinə və bu yolda yeni uğurlar qazanılmasına xidmət edir. Belə ki, yola saldığımız 2015-ci il də Azərbaycanın həyatında bir sıra uğurları ilə yadda qalacaqdır. Böyük əminliklə demək olar ki, qarşıdakı illər Azərbaycan üçün daha uğurlu və möhtəşəm nailiyyətlərlə zəngin olacaqdır.

**Şəfiqə Dadaşova,**
***"İki sahil"***